

# QIZIL İNSANIN GÜMÜŞ MANATI

Rafael HÜSEYNOV

*Onu 2 dəfə öldürdülər.*
*Firidun bəyi birinci dəfə 1920-ci ilin iyununda qətlə yetirmişdilər.*
*Amma güllələməyi ona az bildilər.*
*İkinci dəfə 1937-ci ildə həlak etdilər onu.*

+++

...Bu onun son yazısıdır.

Məngənədəykən, ölümün astanasındaykən qələmə aldığı axırıncı yazısı.

Həmişə təmkinli, səbirli Firidun bəyin varlığını sarmış narahatlıq, əsəb onun bu son xəttinin hər bir hərfindən sezilir.

Nəfəsi daralan sözlər hərflərə sığmır sanki, fikirlər, kəlmələr elə bil hərflərin dar qəfəsindən pırtlayıb çıxmağa can atır.

Hansı rəzil düşmənin əlində əsir olduğunu o, əlbəttə ki, dərk edirdi, məhbəs divarları arasında, yəqin ki, ağlından keçən bütün umidli və ümidsiz düşüncələrin sırasında həyatının əlindən alına biləcəyi ehtimalı da olmamış deyildi.

Amma bu ehtimalın lap gerçək kimi göründüyü anda belə kim ölümün onu da haqlayacağına inanır ki, o da inanaydı.

Bu böyük insanın həmin son yazısını millətimiz görməyib, oxumayıb.

Görün və oxuyun.

Bu, böyük şəhidlərimizdən birinin son məktubudur.

Millət Müəllimi Firidun bəy Köçərlinin son məktubu.

Lakin nəzərlərinizi o qəmli son məktubun yaslı sətirlərinə yönələnə qədər ayrı bir köhnə məktubu qaldıraq.

Oxuyaq ki, bu MÜƏLLİMin – Firidun bəy Köçərlinin nə qədər ülvi, nə qədər müstəsna şəxsiyyət olduğuna hər kəs iman gətirsin.

1911-ci ildə Abbas Səhhət Firidun bəyə növbəti mənzum məktubunu göndərirdi.

Bu, şagirdin ustad qarşısında hesabatı, etirafı, həm də ürəkboşaltması idi.

**"Yazmısan təzə nə şeylər?"**
**– deyə sordun məndən,**
**Ruhumun tarına mizrabzən oldun,**
**qardaş!**
**Sabir ilə belə məktubu**
**çox aldıq səndən,**
**Hər nə yazdıqsa,**
**ona bani sən oldun, qardaş!**
**Bir zaman Naseh ü Tərrah ilə Sabir,**
**bəndə,**
**Yaşayırdıq hamımız qəflət ilə**
**fərxəndə.**
**Birimiz mərsiyəquluqda**
**böyük şair idi,**
**Birimiz sacerə mail, birimiz canana.**
**Birimiz həcvdə Yağma kimi**
**çox mahir idi.**
**Laübalı keçinirdi günümüz rindanə.**
**O pərişan yuxudan sən bizi bidar etdin,**
**Doğru, düz yolda çalışmaqlığa**
**vadar etdin.**

Səhhət bu şeir-məktuba ünvan qoymuşdu: "Yazmam!".

Bezdiyini, pisikdiyini, yorulduğunu deyirdi, ruhunu böhranlı aləmlər boğduğu üçün, qələm ondan bizar olduğu üçün daha yaza bilmədiyini söyləyirdi.

Şübhəsiz, Firidun bəy dərhal cavab yollamışdı, ovutmuşdu, qanadlandırmışdı onu, yeqin təzə şeirlərini, tərcümələrini də istəmişdi.

Və Səhhət müəllimini gözüyolda qoymamışdı. Tezlikcə yenə içəridən səfərbər etmişdi özünü, ruhunu dikəltmişdi, yazmışdı.

Yazmaya bilməzdi, ustadı, müəllimi ondan yazmasını rica edirdi.

Bu, artıq 1914-cü ildir. Allah bilir həmin aralıqda neçə dəfə bir-birindən səbirsizliklə gözlədikləri neçə qardaş məktubu almışdılar.

1914-cü il idi, Firidun bəy yenə məktub yazmışdı, yenə ilk sualı təzə nə yazmısan olmuşdu, bu sualın müqabilində Səhhət cavab məktubunda təzə nələrisə göndərməyə bilməzdi – Müəllim onu lövhəyə çağırırdı.

**Möhtərəm qardaşım Firidun bəy!**
**Yenə şəfqətlə halımı sordun.**
**"Yeni şeylər nə yazmısan", – deyərək**
**Könlümü duyğularla doldurdun.**
**Nə yazım mən bu qəmli zülmətdə?**
**Nurdan heç əsər, nişan yoxdur,**
**Vətənim adlanan bu qürbətdə**
**Nə də əfqanımı duyan yoxdur.**
**Getmiş əldən rəfiq-i sadiqlər,**
**Dövrəmi çulğamış münafiqlər.**
**Bu qaranlıq mühitim içrə mənim**
**Qulağım həbs, gözlərim dustaq.**
**Olmuş ağzımda sözlərim dustaq.**

Bütün çalışıb-çarpışmaqlarda onların bir artıq iddiası yox idi.

Əslində bu sözlər ki Səhhət deyir, elə Firidun bəyin də, Sabirin də, Cəlilin də sözüdür:

**Dürlü manelər olmasa sözümə,**
**Odlu bir nəğmə yazmaq istəyirəm.**
**Gələcək əsrlərdə mən özümə,**
**Şanlı bir qəbr qazmaq istəyirəm.**

Firidun bəy imkan vermirdi ki, bu istedadlı Vətən balaları Vətəndə tam qərib olsunlar: axı biz də varıq, ən azı bir nəfəs dərimlik saf hava, ən azı sizi duyan 3-5 dost ürəyi, sizə dəyər verən bir ovuc qədrşünas varsa, deməli, bura hicrət deyil, qürbət deyil.

Firidun bəy hər təsəlli məktubuyla, özünün ruhdandüşməzliyi, soyumazlığı ilə onları da kökləyirdi, Vətəni bu nurlu şəxsiyyətlər üçün daha artıq Vətənləşdirirdi.

Umacaqlarısa çox deyildi.

Vur-tut tarixin köksündə şanlı bir qəbir.

Tale rahat qəbri də onlara çox gördü.

Onların ən şanlı məzarı duyan, anlayan insanların ürəklərində qazıldı.

+++

Firidun bəyin tələbələrindən biri – Əli Səbri Qasımovun 1957-ci ildə, özünün ahıl çağlarında, ölüm-itimin, doğmaları qeyb etməyin necə göynəkli olduğunu çoxdan duymuş olduğu vaxtlarının etirafıdır: "Mən bu nəcib insanla 44 il əvvəl ayrılmışam. Lakin o hər an gözümün qabağındadır. Mən dünyada hər kəsi itirsəm, ondan əziz olmayacaqdır. Təkcə mən deyil, onun şagirdinin hamısı, kimsə istisna olmayaraq, onun haqqında belə söylər, onun şagirdi olduğu illəri həsrətlə xatırlar".

+++

Əslində biz hamımız onun şagirdləriyik.

Övladı olmayıb.

Biz hamımız onun övladlarıyıq.

Həsrətlə və iftixarla xatırlayaq onu.

Bu gün və həmişə xatırlayaq.

+++

O, işıqlı dünyaya tamam başqa yazıları doğurmaqçün gəlmişdi.

Taleyi belə kəc gətirməsəydi, olsun ki, axırıncı yazısı millətinə, şagirdlərinə, məsləkdaşlarına şeirləmi, nəsrləmi yazdığı bir öyüd, sabah haqqında düşüncələr, yolgöstərmələr olardı.

Ömrü boyu üzərində çalışdığı şah əsərini də nəşr etdirmək ona qismət deyilmiş.

Hə çalışıb-çarpışsa da, səyləri bəhrə vermədi. Bundan da nigaran getdi.

Həmin kitab isə onunçün elə istəkli balası mərtəbəsində idi.



"Firidun bəy Köçərli".
Rəssam Mahmud Tağıyev

+++

1920-ci ilin 5 iyununda növbəti (və son) dindirilməsində Firidun bəy Köçərli belə yazırdı: **"Məni müsavatçı kimi həbs etmişlər. Mənim tərəfimdən xalqa qarşı heç bir təzyiq olmamışdır. Mən daim öz peşəmlə məşğul olmuşam və Xan Xoyski ilə heç bir münasibətim yoxdur. Mən Xan Xoyskinin səlahiyyətli nümayəndəsi olmamışam. Mən bir müəllim və 35 il fasiləsiz tədrislə məşğul olmuş bir şəxs kimi hər hansı burjua məqsədləri daşıya bilməzdim.**

**Mənim atamın 60 desyatindən artıq olmayan torpaq sahəsi vardı ki, onun vəfatından sonra əmimə qaldı, əmim rəhmətə getdikdən sonra isə onun övladlarının mülkiyyətinə keçdi. Artıq 3 ildir ki, mən həmin torpaqları təmənnasız olaraq kəndlilərin istifadəsinə vermişəm. Bu malikanə Cavanşir qəzasının Əyricə kəndindədir. O malikanədən mənim heç vaxt bir qəpik də gəlirim olmayıb.**

**Heç vaxt sabiq baş vali Xan Xoyskinin agenti olmamışam və bunu şəxsim üçün alçaldıcı hesab edirəm. Öz şəxsi işlərimlə əlaqədar Xan Xoyskiyə heç vaxt müraciət etməmişəm və camaatın hansısa ehtiyacları ilə əlaqədar ona müəyyən müraciətim olubsa da, bu, təklikdə deyil, şəhər başçısı ilə bir yerdə baş tutub.**

**Ermənilər və müsəlman əhali arasında törənmiş qarşıdurmalarda heç bir iştirakım olmayıb və guya özümün hansısa burjua niyyətlərimlə bağlı bunu edə də bilməzdim, çünki mənim həmin sinfə aidiyyətim yoxdur.**

**Məvaciblə dolanan adamam və bu gün işimi itirsəm, qara qəpiksiz qalaram. Gənclərin tərbiyəçisi, pedaqogika müəllimi olduğumdan mən qonşu xalqlar arasında qan tökülməsini rəva görə bilməzdim. Məni millətlər arasında ədavət salmaqda ittiham edənlər ağızlarına gələn ittihamların əvəzinə təkzibedilməz dəlillər irəli sürməliydilər. Həmin qarşıdurmalar zamanı mən başqa nümayəndələrlə birgə 3 dəfə Uzuntala kəndinə getmiş (ermənilərin çoxluq təşkil etdiyi kənd olub – R.H.) və hər iki tərəfi hər dəfə qan tökməyi dayandırmağa, dinc işlərlə məşğul olmağa çağırmışam.**

**Bunu həmin nümayəndə heyətinin digər üzvləri İsmayıl ağa Qiyasbəyov, Məcid Şıxlinski, Hacı Axund Cəfərov, Əli Hüseynov, Hacı Kərim Sanıyev və Əbdül Usubov təsdiq edə bilərlər.**

**"Müsavat" partiyasının Qazaxdakı şöbəsi xüsusi bir əhəmiyyət daşımamış və onun 20-dən artıq üzvü olmamışdır.**

**Heç vaxt Qazax şöbəsi tərəfindən heç bir partiyaya qarşı fəal hərəkətlər edilməmişdir. Bizdə bütün iclaslarımızın protokolları qalır və onlara baxaraq mənim dediklərimin doğruluğunu müəyyənləşdirmək mümkündür.**

**Heç vaxt heç yerə proqramlarımızı və müsavat ideyalarını yaymaqdan ötrü agentlər göndərməmişəm. Rəhbərlik etdiyim seminariyanın bütün müəllimləri "Hümmət" partiyasının, onlardan biri – Əli Hüseynov isə Kommunist Partiyasının üzvü olmuşdur. Onların hamısı mənim digər partiyalara mötədil münasibət bəslədiyimi təsdiq edə bilər.**

**Məni Azərbaycanın bütün müəllim ictimaiyyəti yaxşı tanıyır. Xahiş edirəm ki, mənim haqqımda həm Qazax, həm Bakıdakı Müəllimlər İttifaqından məlumatlar toplayasınız. Qazaxdan mənim müəllimlik və ictimai fəaliyyətlərim haqqında şəhər başçısı Əbdül Usubov, yüksək başlanğıc məktəbin nəzarətçisi Əhməd ağa Mustafayev, seminariyanın müəllimi Əli Hüseynov (kommunist) zəruri məlumatları verə bilərlər.**

**Firidun Köçərlinski.**

**İmza.**

**Nöqtə".**

Bunu yazandan dərhal sonramı, ya bir neçə saat ötüncə Firidun bəyin həyatına da axırıncı qurğuşun nöqtə qoyulur.

Azərbaycanın ən nurlu qafalarından biri əbədilik susdurulur.

Onun 1912-ci ildə dünyanı yeni duymağa, anlamağa başlayan Vətən uşaqları üçün yazdığı kitab "Balalara hədiyyə" adlanırdı.

Onun ömrü boyu bir söz sərrafı kimi topladıqları, araşdırdıqları, yazdıqları isə yalnız balalara yox, babalara da dərslik, yaşarı sovqat olmaq gücündəydi, bu gün də həmin dəyəri saxlamaqdadır, əsrlərcə də saxlayacaq, zaman sovuşduqca o sərvətin sanbalı artacaq ki, azalmayacaq.

Davamı 16-cı səh.

# QIZIL İNSANIN

*(Başlanğıcı 15-ci səh.)*

Bu son yazı və onun axırında qoyulan nöqtə ilə isə Firidun bəyin yazı həyatı bitir.

Daha o heç vaxt qələm götürməyəcək və heç nə yazmayacaq.

Artıq nöqtə qoyulub. Hər şey bitib.

Amma canlı həyatı hələ bir neçə saat da davam edəcək.

Köksünə açılan son güllənin ovduğu son qıpqırmızı nöqtəyə qədər.

Bu, Firidun bəyin dindirmə protokolu, onun qələmindən çıxmış son yazıdır.

Həqiqətdə bu yazı onun müstəntiqin suallarına bənd-bənd cavablarıdır.

Millət sevgisinin abidəsi sayılacaq bir insan "xalq düşməni" damğası ilə ləkələnir, onunçün təhqiramiz sayılası əməllərdə suçlandırılır.

Həbsdə olduğu günlər ərzində bu suallar dönə-dönə verilib (bunu təsdiqləyən sənədlər də cinayət işində qalır), eyni cavablar da dönə-dönə təkrar edilib.

Bu gün Firidun bəy yenə (özü də bilmir ki, artıq son dəfə) böhtanları rədd edir, hələ nəyinsə yaxşı qurtaracağına inanır.

Amma belə bir sonluq qaçılmaz idi.

İstiqlal əldən getmişdi.

Sovet hökuməti Azərbaycan Xalq Cümhuriyyətini devirmişdi.

Və istiqlalın ən sadiq əsgərləri aradan götürülməliydi.

Ən sadiqlər və parlaqlar dərhal.

Digərləri də tədricən.

Xalqa da göz dağı çəkilməliydi ki, bir daha baş qaldırmasınlar, yerlərini bilsinlər.

1920-ci ilin aprelində üçrəngli bayrağımız endiriləndən sonra neçə aylar boyu Azərbaycanın ən müxtəlif guşələrində 50-yə yaxın üsyan olub. Onların əksəri haqqında onillərcə susulub. İnsanlarımızın əksəri bu mərdanə tarixçələrdən bixəbər qalıb.

Cahangir bəy Kazımbəyli və Sarı Ələkbərin başçılıq etdiyi məşhur Gəncə üsyanı həmin üsyanların zirvəsiydi.

Xalq, millətin öndə gedən fədakar balaları azadlığı itirməklə heç vəchlə barışa bilmirdi.

Amma indi bütün olub keçənləri, Gəncə üsyanını və digər o qəbil qiyamların hamısını göz önünə gətirirkən xalqın çılğın mübarizliyini, dəliqanlı haqq savaşını unutmamaqla yanaşı, bütün bunların arxasında qırmızı şeytanın müdhiş məkrini də görürəm. Bir çox qarşıdurmaların törənməsində yeni hakimiyyətin özünün də barmağının olmasında şübhəliyəm.

Bolşeviklər, terror qanadında taxta çıxmış sovet hakimiyyəti belə tərpənişlərdə özü maraqlıydı – xalqı qanına qəltan etmək, camaatın gözünün odunu biryolluq almaq, bir daha dikbaşlıq etməmələriyçün onlara ibrət dərsi verməkdən ötrü lazım idi bu qırğınlar.

Firidun bəy istiqlalın beşiyi başında duranlardan idi.

İstiqlal Bəyannaməsinə ilk imza atanlardan idi.

Onun, əlbəttə ki, ilk həbs edilənlərdən biri olması məntiqli idi.

Gəncə-Qazax bölgəsində Firidun bəy Köçərlinin də, Xudadat bəy Rəfibəylinin də nüfuzu çox yüksək idi. Gəncə üsyanı başlanmamışdan onların ikisinin də təcrid edilməsi həm də bu xəbəri verir ki, hakimiyyət üsyanın baş verəcəyindən xəbərdarmış (bilirmiş, amma qabağını almırmış. Bu ona daha çox gərək imiş. Tarixi təcrübə vardı. İmperiya vaxtilə Cavad xanı devirərək Gəncəni al qana boyamışdı, indi də ona məhz qalxan kütləni yerlə yeksan edərək həmin məhşəri bir də təkrarlamaq sərfəli idi).

Və işğalçı iblis bölgəni ən üstün öndərlərdən məhrum etməyin tədbirini irəlicədən görübmüş.

Fəqət onları həbsdə uzun müddət saxlamaq da təhlükəliydi, təbii ki, yeni hökumət bu ağır çəkili lider düşmənlərini ələ keçirmişkən ləngitmədən məhv etməliydi.

Fürsəti də fövtə vermir.

Firidun bəyi 1920-ci il mayın 10-da tutmuşdular. Onu Gəncə həbsxanasına aparmışdılar.

Və Firidun bəy dünyadakı ən əziz hayanına, həyat yoldaşı Badisəba xanıma məktub göndərə bilmişdi.

Nə özü, nə ömür-gün dostu bilirdi ki, bu, axırıncı məktubdur.

O məktubda xəfifcə ümid işarırdı.

Ümidsizlik qarışıq bir ümid.

*Əzizə Badisəba!*

**Təvəqqe edirəm ki, çox darıxmayasan. İnsanın başına hər cürə qəza gələr. Mənim üçün lazımdır bir stəkan-nəlbəki, bir əlyuyan (şagirdlərin əmallı qrafinlərindən biri), bir lampa, bir üzsilən, iki dəsmal, mənim çustum, bir taz, bir çaydan, bir qədər çay, mənim ağ tujorkam.**

**Müəllim və şagirdlərə salam. Səbir elə.**

**Firidun Köçərli.**
**17 may, 1920.**

Bir həftədir ki, həbsdədir.
Ölümünə 18 gün qalır.



**Firidun bəy Köçərlinin son yazısı MTN arxivindən**

Və yazıq Badisəba xanıma bir ömür uzunu səbir etmək nəsib olacaq.

Gəncə üsyanının atəşləri toxtayandan, bir neçə gün sürən azadlıq yenidən ən qanlı və amansız şəkildə minlərlə həyatı udaraq boğulduqdan, yüngülvari bir səngimə hiss ediləndən sonra Badisəba xanım bütün bu çarpışmalar zamanı həbsxanada olan əriylə görüş almaq niyyətiylə Gəncəyə tələsir.

Amma ayrı-ayrı xatirələr Badisəba xanımın guya azadlığa buraxılacaq ərini aparmaqçün gəldiyini deyir.

Belə bir yozum var ki, Firidun bəylə eyni vaxtda həbsxanada olan Abbas Rzaqulu oğlu ona yemək gətirən qadına ötürdüyü məktubda yaxın qohumu, Azərbaycan Mərkəzi Komitəsinin üzvü Eyyub Xanbudaqova Köçərlinin də burada dustaq olduğu xəbərini çatdırır.

Xanbudaqov da öz növbəsində Nəriman Nərimanovu məsələdən agah edir.

Yenə ağızdan-ağıza gəzən xatirələr rəvayət edir ki, Xalq Komissarları Sovetinin sədri, Köçərlinin keçmiş tələbəsi Nəriman Nərimanov iki təcili teleqram göndərir – birini Firidun bəy Köçərlinin dərhal azad edilməsi tələbi ilə Gəncənin fövqəladə komissarı Həmid Sultanova, digərini isə Firidun bəyin azad ediləcəyi xəbəriylə sevindirməkçün Badisəba xanıma.

Badisəba xanım yetişir Gəncəyə, ancaq görüş vermirlər, "burda deyil, ya Bakıya, ya Şuşa türməsinə köçürülüb" söyləyirlər.

Bu da rəvayət edilir ki, teleqramlar çatanadək artıq Firidun bəy güllələnibmiş.

Nəriman Nərimanov doğrudanmı o teleqramları göndərib?

Badisəba xanımın arxivi Nizami muzeyindədir.

Bu cəfakeş və mətin qadın ömrü boyu aldığı və qəlbinə yaxın bildiyi bütün teleqramları, məktubları, kağız qırıqlarını qoruyub saxlayıb.

Nərimanovun ona teleqramı olmuş olsaydı, yəqin ki, bu saxlancların arasında o da qalardı.

Yoxdur.

Digər tərəfdən, Badisəba xanım özü elə həbsdən dərhal sonra Nərimanova məktub, ya teleqram göndərə, Firidun bəyin dustaq edilməsini xəbər verə bilərdi.

Həbslə qətlin arasında uzun bir müddət, hər halda xəbəri çatdıra bilməyə yetərli olacaq, hər hansı xilasedici tədbir görməyə də bəs edəcək vaxt varmış.

Olsun ki, xəbəri də çatdırmış Badisəba xanım.

Nəticəsiz qalıb.

Firidun bəy güllələnib.

Güman edirəm ki, o dövrdə sovet hökumətinin siyasi taleyi ilə birbaşa bağlı olan bu qəliz işlərə Azərbaycan hökumətinin müdaxilə imkanları zəifmiş. Azərbaycanda əsas söz sahibi Azərbaycan hökumətindən daha əvvəl 11-ci ordu rəhbərliyi və mərkəzi ÇK imiş.

Firidun bəylə son dindirmə protokolu iyun ayının 5-də tərtib olunmuşdu.

Zavallı Firidun bəy həmin gün inanmaq, ümid etmək istəyir ki, onun sözlərinin doğruluğunu araşdırmaqçün hansısa sənədləri qaldıra, kimlərisə çağırıb danışdıra, hətta onların partiya iclaslarının protokollarını oxuya bilərlər.

Haradan bilsin ki, onun qətlinin fərmanı artıq dünəndən hazırdır.

Budur indi MTN-də qorunan 578 saylı cinayət işindəki qərar.

*"4 iyun 1920-ci il.*

***Mən 20-ci atıcı diviziyanın 7-ci xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firidun bəy Köçərlinskinin əksinqilabi fəaliyyətdə ittihamı haqqında işi və onun barəsində Qazax İnqilab Komitəsi tərəfindən verilən xasiyyətnaməni nəzərdən keçirərək müəyyən etdim ki, müttəhim Köçərlinski vəzifəsindən və böyük səlahiyyətlərindən istifadə edərək əməkçi xalqa qarşı zor tətbiq etmiş, Qazax rayonunda "Müsavat" partiyasının sədri olaraq milli ehtirasları alovlandırmış ki, bunun nəticəsində qonşu xalqlar arasında toqquşmalar baş vermişdir.***

***Onun verdiyi izahlar heç bir inam doğurmur, çünki rəyinin öyrənilməsini təklif etdiyi şəxslər Qazax İnqilab Komitəsi kimi nüfuz və etibara malik ola bilməzlər. Həmin səbəbdən də müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi ilə əlaqədar vəsatətini rədd etmək olar və onun özünün azadlıqda qalmasının gələcəkdə Qazax qəzasında əksinqilabi hərəkat yaradacağı və fəhlə-kəndlilərin günahsız qanının axıdılmasına bais ola biləcəyini nəzərdə saxlayaraq qərara alınır: müttəhim Köçərlinski güllələnsin!***

*Təsdiq edirəm – fövqəladə komissar Həmid Sultanov".*

+++

Bu da hökmün yerinə yetirilməsi haqda ordu xüsusi şöbəsinin rəisi Libermanın imzaladığı 964 saylı arayış.

+++

Coşqun Xəlil Rza misralarını mən Mikayıl Mirzənin ötkəm, təlqinedici, kükrəyən səsində eşidirəm.

Bu təəssürat səbəbsiz deyil – şairin "Dastança" dediyi iri əsərin bir parçası olan bu şeir də Mikayıl Mirzənin poemamonoloq kimi meydanlardakı ifası üçün nəzərdə tutulmuşdu.

**Firidun bəy Köçərli Gəncədə**
**güllələndi,**
**Fikir gülüstanları qönçədə**
**güllələndi.**
**Alimlər hər sətrini çıraqla gəzir indi,**
**Onu kim güllələdi? Mauzerli gənələr.**
**Bu yurda biganələr, bu xalqa biganələr.**

Yox, Xəlil Rza. Onu bu yurda və bu xalqa biganələr deyil, bu xalqın və bu yurdun qanına təşnələr güllələdilər.

Həmin son dindirməsində Firidun bəy sadədilliklə onu yaxşı tanıyanlardan biri kimi kommunist yoldaşının adını çəkir, kommunistlərin kommunistin sözünü eşidəcəyinə, bu sözə etibar edəcəyinə inanmaq istəyir.

Milli Təhlükəsizlik Nazirliyinin arxivində Firidun bəyin işi ilə eyni qovluqda daha bir neçə müttəhimin ifadələri, haqlarında bilgilər, aldıqları cəzalar barədə soraqlar var. Onlardan biri Məcid bəy Vəkilov elə kommunist olub.

Rəhm etməyiblər, Firidun bəylə eyni gündə güllələyiblər.

Bu da həmin kommunistə yazılmış ittihamnamədən parça: ***"O, kommunist pərdəsi altında "Müsavat" partiyasının agenti rolunu oynaya, bununla da inqilabın dərinləşməsi işini tormozla-***

# GÜMÜŞ MANATI

*ya bilər".*

Beləliklə, hansı partiyanın üzvü olmaq, hansı məqamı tutmaq, ən yüksək səviyyədə kiminsə zəmanət verməsindən asılı olmayaraq qəzavü qədər səviyyəli bir çıxılmazlıq vardı – sovetin qara siyahısına düşmüsənsə, getməlisən.

Bunu bəlkə də hamıdan əvvəl elə itkini duymaqda iti olan qadın fəhmiylə Badisəba xanım hiss etmişdi.

İyunun əvvəllərində Gəncəyə gedərək əri ilə görüş ala bilməyib qanadı qırılmış halda Qazaxa qayıdanda ilk rastlaşdığı əmisi oğlu Mehdi ağa Vəkilova ürəyinin səksəkəsini açır: ***"Dedilər Firidun bəy Gəncədə yoxdur, amma mənə elə gəlir həyatda yoxdur, öldürüblər onu.***

***Papağını oradakı əsgərlərdən birinin başında gördüm".***

+++

Ax zəmanə!

Kimlərin papaqlarını kimlərin başına qoydun.

Yalnız o gün yox ki!

Yalnız Firidun bəyin papağını yox ki!

+++

1891-ci ildə Firidun bəy hələ xeyli cavan idi, qarşıda çoxlu yaşamalı gözəl illər gülümsəyirdi, ölüm, qan-qada uzaqda idi və İrəvan gimnaziyasında dərs verən Firidun bəy şagirdlərini qədim yunan dünyasının mütəfəkkirləri, o dahilərin hikmətli sərgüzəştləriylə aşina etməkdən ötrü "Təlimat-i Sokrat" adlı bir kitab yazmış, Baxçasarayda, "Tərcüman" nəşr evində çap etdirmişdi.

Həmin nazik, amma mənaca tutumlu kitabçanın sonluğunda öldürülməyə hazırlaşan Sokrat yanındakı şagirdlərinə üz tutaraq deyir: "Sizə məlumdur, mənim mal və dövlətim yoxdur ki, o xüsusda vəsiyyət edəm. Ancaq təvəqqem sizdən odur ki, nə təlim etmişəmsə, cümləsinə əməl edin".

"Səni necə dəfn edək?", – soruşurlar.

Sokrat cavab verir ki, ruh bədəndən xilas olandan sonra bədənə nə hacət! Onunla nə istəyirsinizsə edin!

Bu alıntı da o əsərdəndir: ***"Pristav əlində hökm içəri daxil oldu. Üzün tutub Sokrata belə dedi: "Mən şair məhkumların üzlərinə ölümünü oxuyub zəhər verəndə onlar mənim üstümə çığırıb məzəmmət ediblər və çox vaxt nalayiq sözlər və föhşlər deyiblər. Amma bunları səndən gözləmirəm, çünki bu dustaqxanada indiyə qədər səndən insaflı və xoşrəftar dustaq olmayıb. Sənin qəzəbin gərək məni tutmasın, səni nahaq yerə bu bəlaya giriftar edənləri tutsun. Bilirsənimi nə xəbərlə sənin yanına gəlmişəm? Xuda hafizin olsun, cəhd elə ki, ölümün qabağına mərdanə çıxasan. Nə eləmək! Bizdə o qüdrət yoxdur ki, qəzanın işlərini təbdil edək".***

Sanki bu sözləri Firidun bəyin qələmi 1891-ci ildə yazmayıb.

Sanki bu sözləri 1920-ci ildə Firidun bəyin şagirdi olmuş Nəriman Nərimanov və o çağda Azərbaycan hakimiyyətində yüksək məqamlar tutan, ya birbaşa, ya dolayısı ilə Köçərlinin yetirməsi, tələbəsi olan yüksək çinli məmurların hər biri deyir.

Millətə qarşı soyqırımı qərarı Azərbaycana qıraqdan gəlirdi. İcraçılarınsa çöldən gələni də vardı, içəridə olanı da.

Yeni quruluşa qulluq edənlərin özlərinin də çoxu və ən seçkinləri – başda Nərimanov olmaqla – sonralar tədricən eyni ölüm maşınında üyüdüləcəklər.

Firidun bəyin həlak edilməsinin irəlicədən düşünülmüş, layihəsi cızılmış, labüd bir qətl olmasını məhbusun adına açılmış saxta cinayət işinin hər səhifəsi sübut edir.

1920-ci il mayın 10-da tutulub.

Hesabla bu saxlanma üçün hansısa arayışlar, donoslar, təqdimatlar yalandan da olsa daha köhnə tarixlə hazırlanmalı idi. Amma çekist cəlladların gözünü qan elə tutmuşdu ki, sənədlərdəki tarix uyğunsuzluqları da veclərinə deyildi. Sübut – yalnız 1920-ci il mayın 23-də Qazax İnqilab Komitəsi Gəncənin fövqəladə komissarına təqdimat yazır ki, bəs Firidun bəyi tutmaq lazımdır: ***"İnqilab Komtitəsi bildirir ki, "Müsavat" partiyası Qazax şöbəsinin sədri Firidun bəy Köçərlinski, vergi müfəttişi Paşa bəy Vəkilov, mülkədar Nadir bəy Dağkəsəmənski və pristav Məcid bəy Vəkilov Qazax qəzasında əsas əksinqilabçılar və sovet hakimiyyətini istəməyən şəxslərdir. Çevrilişə (1920-ci il aprel hadisəsinə hələ rəsmi xəfiyyə sənədləri özləri də "çevriliş" – "perevorot" deyir, bu qəziyyəni xeyli sonralar başlayacaqlar "inqilab" adlandırmağa – R.H.) qədər geniş imkanları və hakimiyyətləri olan bu şəxslər özlərinin şəxsi burjua məfkurələrinin naminə hər növ əclaf addımlar atmış və xalqı hər cür üsullarla aldatmışlar. İndi aldadılmış və soyulmuş yüzlərlə insan İnqilab Komitəsinin pəncərələri qarşısında dayanaraq kömək istəyir. Firidun bəy Köçərli və "Müsavat" partiyasının Köçərlinin tayı olan digər xidmətçiləri erməni-azərbaycanlı qarşıdurmaları törətmişlər. Bu onlara hakimiyyətlərini möhkəmləndirmək, torpaqları ələ keçirmək və sair məqsədlər üçün lazım idi. Min desyatinlərlə torpaqları olduğu halda onlar yenə də əhalini hər vasitə ilə qorxutmaqla camaatın birtəhərlə, polis qamçıları altında inləyə-inləyə, həbsxanalarda zillət çəkə-çəkə öz miskin yaşayışını təmin etdiyi azacıq torpaqlarını da əllərindən qoparmağa cəhd edirdilər.***

***Firidun bəy Qazaxın o vaxtkı general-qubernatoru Əmir Xan Xoyskinin möhkəm havadarlığına arxalanaraq özünün Qazax Müəllimlər Seminariyasının tərbiyəçisi kimi müqəddəs vəzifəsini unutmuş, qəza boyu agentlərini yaymış, onların köməyi ilə əhalinin pullarını qarət etmiş, Qazax əhalisini ermənilərə qarşı qaldırmış, pul və qarşıdurmalar vasitəsilə "Müsavat" partiyasının devrilmiş hakimiyyətini möhkəmləndirməyə səy etmişdir. Həmin alçaq fəaliyyətlərin nəticəsi olaraq bu il aprelin əvvəlindəki hamıya məlum olan erməni-azərbaycanlı toqquşmaları baş vermiş, nəticədə 8 azərbaycanlı kəndi müflis olmuş, yuxarıda göstərildiyi kimi, indi onlar İnqilab Komitəsi pəncərələri qarşısında kütləvi halda toplaşaraq çörək və başqa maddi yardımlar istəyirlər. Eyni zamanda onlar qisas tələb edir, adları çəkilən şəxslərin əhaliyə qarşı törətdikləri həyasız alçaqlıqlara görə ən ciddi şəkildə cəzalandırılmalarını istəyirlər".***

Bu arayışı bir daşnakın tərtib etdiyini müəyyənləşdirmək üçün xüsusi bəsirətlilik lazım deyil.



Firidun bəy və Badisəba xanım

Azərbaycan xüsusi xidmət orqanlarına bolşeviklərin hakimiyyəti qəsb etdiyi ilk günlərdən daraşan ermənilər bütün sovet onilləri boyunca bu əliuzun idarələrin vasitəsilə millətimizə, illah da parlaq şəxsiyyətlərimizə mütəmadi divanlar tutmuşlar, soyqırımı siyasətini bu xətlə də gerçəkləşdirmişlər.

Firidun bəyin 1918-1920-ci illərdə erməni fitnələrini soyutmaq üçün çox zaman həyatını təhlükədə qoyaraq barışıq missiyası ilə ermənilərin sıx yaşadığı kəndlərə getməsi barədə bolluca bilgilər, təsirli söyləmələr var.

Amma bu arayış ixtilafın baş verməsini də Firidun bəyin boynuna yıxır.

Məntiqinə baxın sənədin – erməni-azərbaycanlı qarşıdurması olub, xarabazara dönən azərbaycanlıların yaşadığı kəndlərdir və guya azərbaycanlılar gəlib hökumətdən tələb edirlər ki, bu faciəyə bais olan Firidun bəy kimi şəxslər cəzalandırılsın.

Bu cür xəstə məntiqlə ermənidən savayı kim düşünə, ermənidən qeyri kim belə sırtıqlıqla şər ata, iftira yağdıra bilər!

***"İndi, çevrilişin son günlərində, hakimiyyətin artıq bolşeviklərdə olduğu vaxtlarda da onlar yenə də bərqərar olmuş sovet hakimiyyətinə qarşı gizli fəaliyyət aparırlar. Ona görə də hazırda mövcud olan qayda-qanunlara və hakimiyyətə qarşı barışmaz düşmən mövqeyində dayanan, əksinqilabçı olan bələlərinin azadlıqda qalması mümkünsüzdür. Bütün bunları nəzərə alaraq Qazax İnqilab Komitəsi sizin qarşınızda həmin şəxslərin ciddi şəkildə cəzalandırılması barədə vəsatət qaldırır. Əgər hansısa səbəblərdən onlar cəzalandırılmasa, Qazax İnqilab Komitəsi sizdən təkidlə xahiş edir ki, qəzada əhali sakitləşənədək bu şəxslərin xalqa ziyan hakimiyyətləri və qaydalarının son qalıqlarının da kökündən çıxarılmasınadək həbs edilməsini təmin edəsiniz".***

Mayın 23-də yazılmış bu təqdimata mayın 25-də "İcra edilsin" dərkənarı qoyulur.

Amma Firidun bəy artıq 15 gündür ki, həbsdədir.

Yəni əsas niyyət həbs etmək idi. Rəsmiləşdirmələr üçün bütün sənədlərsə sonradan tərtib olunur.

+++

Düşmən belə idbar düşmən idi.

Dövr dəyişib.

Düşmənlər mahiyyətcə həmin düşmənliyində, həmin idbarlığında qalır.

Qalmasaydılar, arxivlərin tozunu uda-uda o matəmli parçaları gün işığına çıxarmaz, onları bir daha oxutdurmaqla sizi yormazdım.

Ayıq olaq!..

+++

***"Firidun bəy Köçərlinin mənə yazdığı məktublar o qədər mənalı, səmimi hisslərlə dolu olardı ki, ondan məktub aldığım günlər mənim üçün toy-bayrama çevrilərdi.***

***Firidun bəy məktublarında təkcə mənim və ailəmizin əhvalını soruşmaqla kifayətlənməz, eyni zamanda poçta ilə ona göndərdiyim yeni əsərlərimi təhlil edər, onların müvəffəqiyyət və nöqsanını göstərər, nədən və necə yazmaq haqqında öz mülahizələrini bildirər, Azərbaycan, rus və Avropa yazıçılarının əsərlərindən gətirdiyi gözəl nümunələrlə fikirlərini daha möhkəm əsaslandırardı. Bu cür məktublarında o, yeri gəldikcə öz zəmanəsindən də ağır-ağır şikayətlənərdi.***

*Davamı 18-ci səh.*

# QIZIL İNSANIN GÜMÜŞ MANATI

(Başlanğıcı 17-ci səh.)

*Uzun müddət belə yazışdığım və görmək həvəsi ilə çırpındığım Firidun bəy Köçərli ilə nəhayət 1914-cü ildə ilk dəfə olaraq görüşdüm. Bu görüşümüz Gürcüstanın Manqlisi yaylağında istirahət edərkən oldu. Manqlisdə qaldığım müddətdə mən Firidun bəyin ziyadə çalışqan, zəhməti, ədəbiyyatımızı və dilimizi sevən bir adam kimi yüksək keyfiyyətlərə malik olduğunu müşahidə etdim. O yorulmaq nə olduğunu bilmədən çalışır, "Azərbaycan ədəbiyyatı tarixi materialları"nı tərtib edirdi".*

Bu, Abdulla Şaiqin səsidir və gör Firidun bəyin zəhmətkeşliyi nə həddəymiş ki, özü də ifrat əməksevər olan Şaiq Köçərlinin istirahət saatlarını da yazı-pozuya, sevimli əsərini yaratmağa gen-bol, az qala bütünlüklə həsr etməsinə heyrətlənirmiş.

Çox ədəbiyyat tarixlərimiz yaranıb, bundan sonra da yaranacaq.

Amma Köçərlinin yaratdığı "Tarix"in misli olmayacaq və onun kitabına həmişə mötəbər qaynaq kimi üz tutulacaq.

Firidun bəy haqqında bəhs etdiyi şairlərin əksəri ilə yazışmadaydı.

O şairlərin çoxu təzə əsərlərini məsləhət üçün, tövsiyələr almaqdan ötrü Firidun bəyə yollayırmışlar.

Onların çoxunun tərcümeyi-halı Firidun bəyin sayəsində bizlərə bəllidir. Həm də bu cür dəqiqliklə, bunca inanımlı bir şəkildə.

Çünki o şairlər öz həyat hekayətlərini də Firidun bəyin ricasıyla şeirlərini yolladıqları məktublarına əlavə edərmişlər.

Firidun bəy o qalın məktubların hamısını saxlayırmış.

Bu sürəkli yazışmaların bir gözəlliyi də ondaymış ki, həmin məktublarda o şairlərin Firidun bəylə ünsiyyətdə ildən-ilə necə dəyişdikləri görünürmüş.

Həmin yazışmalarda Azərbaycan şairlərinin ustad, başbilən sayaraq qəbul etdikləri Firidun bəyin bələdçiliyi ilə necə tərəqqi etdikləri aşkar olurmuş.

Söz yox, Firidun bəy indi ortada olan "Ədəbiyyat tarixi"ndə həmin məktubların heç onda birindən istifadə etməyə macal tapmayıbmış.

Yəqin o məktub-qaynaqlara sonralar dönə-dönə qayıdacaqmış.

Firidun bəyin özündən sonra o qaynaqlara bizlər də dəfələrlə üz tutmalı olacaqdıq.

Bunların hamısı qiymətini bütün nəhəngliyi ilə vermək mümkün olmayan əvəzsiz xəzinəymiş.

Amma...

1938-ci ildə Nuxa məktəbəqədər uşaq evinin müdirəsi Badisəba Köçərli Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Mircəfər Bağırova ərizə ilə müraciət edir: ***"1921-ci ildən indiyə qədər Xalq Maarif Komissarlığı xətti ilə işləyirəm və 1925-ci ildən Azərbaycan rayonlarında çalışıram. O qədər də çox olmayan ev əmlakımı özümlə daşımaq imkanım olmadığından onları Bakıda yaşayan qardaşım Məmməd Vəkilovun mənzilində saxlamışdım. Qardaşımın oğlu, Karl Marks adına Xalq Təsərrüfatı İnstitutu hüquq fakültəsinin keçmiş dekanı Mustafa Vəkilov onunla eyni mənzildə yaşayırdı.***

***Mərhum ərimin arxivi də mənim əşyalarımın arasında idi. Firidun Köçərlinski Qori Müəllimlər Seminariyasının keçmiş müəllimi, sonralar Qazax Müəllimlər Seminariyasının direktoru olmuşdu və onun arxivində çoxlu qiymətli ədəbi materiallar vardı. O cümlədən: Mirzə Fətəli Axundovun əlyazmaları, Sabirlə ədəbi səciyyəli yazışmalar, "Molla Nəsrəddin"lə yazışmalar, Köçərlinin öz yazıları, müxtəlif ədəbi xadimlərdən alınmış bolluca materiallar.***

***10 noyabr 1937-ci ildə Mustafa Vəkilov NKVD tərəfindən həbs edilərkən ona aid materiallarla birgə mənim ərimin arxivini də götürmüşlər. Bu barədə mən yenicə xəbər tutmuşam. Xahiş edirəm mənə cavab verin ki, göstərilən arxivi nə vaxt geri ala bilərəm".***

Arakelyan, Ambursumyan, Qriqoryan, Qalustyan, Manukyan və bir sürü bu cür "yan"ların "məsum" imzaları KQB qovluqlarındakı eyni məzmunlu aktların altında tez-tez görünür: ***"Şahidlik edirik ki, iştirakımızla filankəsin arxivində olan sənədlər, kitablar, şəkillər və yazılar yandırıldı. Onunla əlaqədar bu akt tərtib edildi".***

Vəssalam.
Kibriti çaldılar.
Bir tonqal alışdı.
Cavidin əsərləri kül oldu.
Kibriti çaldılar.
Müşfiqin kitabları, əlyazmalarının ocağı şölələndi.
Kibriti çaldılar.



Firidun bəy doğmaları ilə

Əhməd Cavadın, Salman Mümtazın, Seyid Hüseynin, hansı alimlərin, hansı yazıçıların, hansı ziyalıların heç vaxt bir başqası tərəfindən yaradıla bilinməyəcək əsərləri bir neçə an içində qayıdışsız məhv olub getdi.

Yox, o əziz Vətən balaları sadəcə güllələnməyiblər.

Cordano Bruno kimi, onların hər biri, əslində, tonqalda yandırılıb.

Firidun bəy də yalnız 1920-ci ildə öldürülmədi.

O vaxt onu sadəcə güllələmişdilər.

1937-ci ildə isə Firidun bəyi, həm də tək onu yox, onun arxivinə sığınmış onlarca şairi eyni bir tonqalda alışdırıb kül etdilər.

+++

Hər ehtimala qarşı Mustafa Vəkilovun Milli Təhlükəsizlik Nazirliyinin arxivindəki cinayət işini vərəqlədim.

Kollektiv cinayət işidir. Guya Xalq Təsərrüfatı İnstitutunda əksinqilabi antisovet trotskiçi təşkilat yaratdıqlarına görə 5-i birdən tutulub. Mustafa Vəkilov, Yusif Rəhimli, Məcid Quliyev, Akop Akopov, Vladimir Akopov.

Bu, KQB arxivlərində rastlaşdığım ən anlaşılmaz işlərdən biridir. Əvvəlcə onlara 5 il iş verilir, sonra təzədən baxıb müddəti 15 ilə qaldırırlar, kiminə ölüm hökmü çıxarırlar, sonra yenidən araşdıraraq yenə 5 illik cəzaya qayıdırlar, bir ara tutulanların əks-sədası Qazaxıstandakı həbs düşərgələrindən gəlir.

Və Mustafa Vəkilovun da sovet həbsxanasında və sürgündə deyil, mühacirətdə olması, 1950-ci illərdə elə qürbətdə dünyasını dəyişməsi məlumdur.

Canını necə qurtara, bu tələdən hansı möcüzəylə qurtula bilmişdi?

O cinayət işi nəinki bu suala cavab verir, əksinə, sirrə sirr artırır.

Bəlkə hansısa qüvvə o işdə adı keçən erməniləri qoruyurmuş və onların hesabına bu birilər də nicat bulublarmış?!

Yalnız dərinə gedə bilməyən fərziyyələr söyləmək mümkündür, əsl səbəbsə gorbagor KQB labirintlərinin məchul dalanlarında əriyib itir.

+++

Beləliklə, qəbul olunmuş qayda üzrə Mustafa Vəkilov da həbs edilərkən şahidlərin iştirakı ilə axtarış protokolu tərtib edilir.

Bir neçə xüsusi əhəmiyyət kəsb etməyən əşyasının, vəsiqələrinin adı yazılıb orada.

Ümumən həmin sənədlər çox vaxt şərti səciyyə daşıyıb.

NKVD bayquşlarının nə vaxtı, nə hövsələsi vardı ki, apardıqlarını müfəssəl təsvir edəydilər.

Əlyazmalar, fotolar, kitablar daşınanda və onları protokolda əks etdirəndə adətən "bir kisə", "iki çamadan", "üç çanta"... deyə yayğın şəkildə qeydə alıblar.

Paris Universitetinin hüquq fakültəsini bitirmiş, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində – 1919-cu ilin sonlarında xaricdə təhsil almağa göndərilən 76 gəncdən biri olmuş Mustafa Vəkilovgildə 1937-ci ilin 10 noyabr gecəsində aparılmış axtarışı əks etdirən protokolda Firidun bəyin arxivi haqda əsər-əlamət yoxdur.

Görünür, Badisəba xanım bu təşkilata Firidun bəyin əlyazmalarının tapılması ümidi ilə bir yox, bir neçə dəfə müraciət edib.

21535 saylı cinayət işinə 1940-cı il sentyabrın 23-də tərtib edilmiş bir arayış da tikilib: ***"Mustafa Məmməd oğlu Vəkilovun həbsi zamanı onun əmlakının təsviri aparılmayıb".***

Necə yəni aparılmayıb!

Burdan-bura yalan yazırlar.

Halbuki 1937-ci ilə aid bir yox, 2 təsvir aktı var. Hər ikisində də ciddi diqqətə layiq olmayan əşyaların adı keçir.

Qalstuk, köynəkçün qol düyməsi və bu qəbildən olan xırda-para.

Yəqin 1940-cı ildəki arayış elə Badisəba xanımın müraciətlərinə birdəfəlik "yox" cavabı verməkçün tərtib edilib.

Olanları onsuz da elə gətircəyin yox etmişdilər.

+++

...Firidun bəyin yazışdığı şairlərdən biri də Naseh təxəllüslü Ağəli bəy Əfəndizadə idi.

Köçərlinin təvəqqesilə o, şamaxılı şairlər barədə bilgiləri, əsərlərindən örnəkləri vaxtaşırı cəmləyərək Firidun bəyə yollayırmış.

Bir dəfə o, Nasehin şeirlərini də zərfə əlavə edir.

Firidun bəy bu qoşquları çox bəyənir, dərhal həmin şairin başqa şeirlərini və haqqında məlumatlar istəyir.

Naseh utancaqlıq və təvazö ilə cavab yazır: "Onların müəllifi bəndənizdir..."

Dostluqları bir az da dərinləşir, ünsiyyətləri bir az da artır.

Və Firidun bəyin Gəncədə həbsxanada olduğu may-iyun günlərində, xüsusən Gəncə üsyanı yatırıldıqdan sonra kişi qismindən yaşından asılı olmayaraq kim salamat gözə sataşırdısa, mümkün üsyançı kimi qəbul edilir, bir bəhanə ilə güllələnirdi.

Oğlan uşaqlarına, yeniyetmələrə də aman yoxdu – küçədə-bayırda gözə dəyəni həbsxanalara doldururdular.

Bu qədər məhbusu tutacaq qədər həbsxana da yox idi.

Karvansara, məscid, klub, tövlələr də dustaqları saxlamaqçün istifadə edilirdi.

Və kütləvi həbslərin tüğyan etdiyi o günlərdə Firidun bəy yatan həbsxanaya bir yeniyetməni də atırlar.

O, tanışlıq verəndə, əslini, kimlərdən olduğunu söyləyəndə Firidun bəy mütəəssir olur.

Bu 13-14 yaşlı oğlan Köçərlinin rəğbətlər bəslədiyi Nasehin oğlu Cümşüd Əfəndizadə imiş.

Qoca vaxtlarında Cümşüd bəy Firidun bəylə türmə görüşünün unudulmaz təəssüratlarını yazıçı-tədqiqatçı Şəmistan Nəzirliyə söyləyib.

Amma Cümşüd bəy vaxtında elə Badisəba xanıma da bir məktub göndəribmiş.

***"Mən sizin haqqınızda təsadüfən qatarda əlimə düşən Nuxa qəzetindən oxudum. Həyat yoldaşınız Firidun bəyi yaddan çıxara bilmirəm. Qərara aldım ki, sizə onunla birgə olduğum son günlər, son görüşlərim barədə yazım.***

***O, qızıl kimi insan idi.***

***Məni saxlayanda qıçımdan qundaqla vurmuşdular, yerimdən tərpənə bilmirdim.***

***Doğma balası kimi dizimi ovxalayırdı.***

***Cibində bircə manat gümüş pulu vardı, onu da mənə vermişdi ki, evə gedəndə gərəyin olar.***

***Elə həmin pul karıma da yetdi. Buraxılanda Qazaxa qayıtdım. Pulum olmasaydı, ac-yalavac, zədəli ayaqla Qazaxa da gəlib çıxa bilməyəcəkdim.***

***Diz sümüyümdə o zədənin çatı qalıb.***

***İndi də soyuq düşəndə həmin çat yeri sızıldayır.***

***Sızıltı başlananda Firidun bəyin dizimi ovxalamağı yadıma gəlir, gözlərim dolur, elə bil yavaş-yavaş sızıltı da öz-özünə çəkilir".***

+++

...Bəs tariximizi necə ovxalayaq, yaralı dünənimizi necə sığallayaq ki, sızıltısı azalsın?!

Firidun bəyi 2 dəfə öldürmüşdülər.

Bəd bəxtində üçüncü dəfə öldürülmək də varmış.

Onun xatirəsinin, əslinin-kökünün, nəslinin izini yer üzündən silməyə qəzavü qədər bir də əl qaldırdı.

***Birinci qətlinin də, ikinci şəhidliyinin də baisi ermənilər idi.***

***Üçüncünü də onlar etdilər.***

***Şuşada, Firidun bəyin dədə-baba yurdunda bir Köçərlilər məhəlləsi vardı.***

***Necə oldu görəsən?***

***Ondan indi nə qalıb?***

**30 yanvar, 2009**

**Davamı var**